Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Nağıl dünyasının yolçusu Əli Səmədli

**Əli Səmədlinin 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Nağıl dünyasının yolçusu Əli Səmədli:** Əli Səmədlinin 90 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Ruhiyyə Məmmədli; ixt.red. və burax. məsul Şəhla Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Giriş

Uşaqların sevimli nağılçı babası, həvəslə oxuduqları əsərlərin müəllifi, həm şair, həm yazıçı, həm də dramaturq olan Əli Səmədlinin qələmindən çıxan hekayələr, nağıllar, pyeslər, povestlər oxucularının qəlbinə nəcib, gözəl hisslər aşılayır. Əli Səmədlinin dadlı, duzlu, nağıl-hekayələri yalnız kəmiyyətinə görə yox, keyfiyyətinə görə də canlı, təbii, səmimi hisslərdən yoğrulmuş həyat lövhələridir. Bu nağılların mayasında insan taleyi, insan varlığı dayanır. Əli Səmədli əsərlərində zəhmətkeş olmağı, doğma vətəni sevməyi, səmimiyyəti, mehribançılığı, ədaləti, həqiqəti tərənnüm edir. Yazıçı ədəbiyyatın bütün janrlarında qələmini sınayıb. O, istər kiçik həcmli nağıllarında, istərsə də iri povestlərində özünü uşaq dünyasına, uşaq psixologiyasına bələd bir sənətkar kimi göstərir. Yazıçının bədii əsərlərinin dili oxunaqlığı və bədiiliyi ilə seçilir. Müəllifin zəngin həyat təcrübəsi, fakt və hadisələrə obyektiv müdaxiləsi, uşaq mənəviyyatına dərindən bələdliliyi onun qələmə aldığı povest, nağıl və hekayələrində açıq - aydın görünür. Yazıçı uşaq dramaturgiyası sahəsində ədəbi fəaliyyətinə sadiq qalmış, xalq ədəbiyyatından məharətlə bəhrələnmişdir. Yazıçının ədəbi yaradıcılığında on səkkiz uşaq pyesi dövlət teatrlarında tamaşaya qoyulmuş və bu tamaşaların teatrda ömrü həmişə uzun olmuşdur. Onun uşaq pyesləri və multiplikasiya filmləri üçün yazdığı ssenarilər müsabiqələrdə dəfələrlə mükafatlara layiq görülmüşdür. Bu il dəyərli yazıçımızın 90 yaşı tamam olur. Yazıçının yaradıcılığını oxucularımıza daha yaxından tanıtmaq məqsədilə bu metodik vəsaiti hazırlamağı özümüzə borc bildik. Vəsaitin I hissəsində yazıçının həyat və yaradıcılığından, II hissədə isə kitabxanalarda təşkil oluna biləcək tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Əli Qafur oğlu Səmədli 1930-cu il sentyabrın 1-də Göyçay rayonunun Mallı Şıxlı kəndində, müəllim ailəsində anadan olub. O, 1948-ci ildə Göyçay şəhərində orta təhsilini başa vurub, Bakı şəhərinə gələrək İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsinə daxil olub. 1953-cü ildə institutu bitirdikdən sonra Pirallahı adasındakı fəhlə yataqxanasında tərbiyəçi müəllim kimi əmək fəaliyyətinə başlayıb. Sonra Mədəniyyət Nazirliyində, İncəsənət Universitetində və uşaq mətbuatında çalışıb. Göyçayda "Arvan" alı kitabxana-muzey açaraq öz şəxsi kitabxanasını (iyirmi mindən artıq kitab), yüzlərlə tarixi-etnoqrafik əşyasını, uzun illər ərzində topladığı xeyli rəssamlıq və heykəltəraşlıq əsərlərini uşaqlara hədiyyə edib. Əli Səmədlinin ilk müəllimi atası olub. Atası Səmədov Qafur Hacı İmaməli oğlu 50 ildən artıq adlı-sanlı kənd müəlimi olub. Çalışdığı orta məktəb hal-hazırda onun adını daşıyır. Əli Səmədli yaradıcılığa şeirlə başlasa da, ədəbiyyatın bütün janrlarında qələmini sınayıb. Yazıçının mətbuatda çıxan ilk əsəri nağıl olub: "Ən böyük yalançı". Həmin nağıl ilk dəfə "Azərbaycan pioneri" qəzetində dərc edilib. Əli Səmədli əsərlərini ən çox uşaqlara maraqlı olan nağıl janrında yazmağı bacardığı üçün daima onların sevimli yazıçısı olmuşdur. Bəli, Əli Səmədli uşaq ədəbiyyatımızın incəliklərinə bələd olan yazıçıdır. Əli Səmədli 55 ildən artıq uşaq və gənclər ədəbiyyatı sahəsində ədəbi fəaliyyət göstərib. O, 40-a yaxın kitabın və 33 səhnə əsərinin müəllifidir. Ayrı-ayrı əsərləri 20-dən artıq xarici dilə tərcümə edilib. Yazıçının nağıl və hekayələri türk, özbək, türkmən, qırğız, belarus, fars, bolqar, macar, polyak, alman, ingilis, hind, əfqan, fransız və başqa xalqların dilinə tərcümə edilərək yayılıb. Görkəmli yazıçı Əli Səmədli 2006-cı il may ayının 30-da vəfat etmişdir.

## Keçiriləcək tədbirlər

Bu il uşaqların sevimlisi Əli Səmədlinin 90 illik yubileyidir. Bu əlamətdar gün münasibətilə çoxlu təntənəli tədbirlər keçiriləcəkdir. Uşaq kitabxanaları da yubiley tədbirləri – ədəbi-bədii gecələr, oxucu konfransı, nağıl axşamları ilə zəngin olacaqdır. İlk növbədə Əli Səmədlinin kitablarının təbliği ilə məşğul olunmalı, **kitab sərgiləri** təşkil edilməlidir. Sərgi üçün müxtəlif başlıqlar veririk. Məsələn: “Nağılçı baba”, “Əli Səmədli – 90”, “Uşaqlarımızın sevimli yazıçısı Əli Səmədli”, “Nağıl dünyasının yolçusu Əli Səmədli” və s. Sərgidə portret, yazıçının kitabları, onun haqqında deyilən görkəmli şəxslərin sitatları və s. verilə bilər. Oxucularımıza Əli Səmədlinin kitablarını yaxşı təbliğ etmək üçün aşağıda bir neçə cür sərgi forması təqdim edirik. I sərgi forması yalnız Əli Səmədlinin kitablarının sərgisindən ibarət olmalıdır. Sərgidə yazıçının dramlarından fotoşəkillər də yerləşdirmək yaxşı olar. Kitabxanaçı bu sərgi qarşısında oxuculara kitablar haqında hərtərəfli, ətraflı, geniş məzmunlu məlumat verməlidir. Həmin sərginin hazırlanmasında Əli Səmədli haqqında deyilən aşağıdakı sitatlardan da istifadə etmək olar.







## Görkəmli şəxsiyyətlər Əli Səmədli haqqında

Əli Səmədlinin uşaqlar üçün yazdığı nağıl-pyeslər və nağıl-hekayələr bədii təsir və ideya-əxlaqi baxımından dəyərli əsərlərdir.

**Qılman İlkin,**
*Xalq yazıçısı*

Əli Səmədlinin yazılarında bir nağıl şirinliyi, valideyn mehribanlığı, ağsaqqal müdrikliyi var.

**Qara Namazov,**
*professor*

Əli Səmədli uşaq aləmində dərin müşahidəçilik qabiliyyəti olan, uşaqların rəngarəng həyatının çalarlarına bələd olan, onları öz övladları kimi sevən yazıçıdır.

**Yəhya Kərimov,**
*professor*

Uşaqlara düzgün həyat yolu göstərmək, torpağı, vətəni ürəkdən sevdirmək, elmə, təhsilə məhəbbət oyatmaq Əli Səmədli yaradıcılığının başlıca qayəsidir.

**Ramiq Muxtar,**
*Şair-dramaturq*

II sərgi formasını yazıçının nağıllarına, dram əsərlərinə əsasən çəkilmiş illüstrasiyalardan təşkil etmək olar. Bu sərgini təşkil etmək üçün yubileydən bir neçə ay qabaq kitabxanada **rəsm müsabiqəsi** keçirmək lazımdır. Müsabiqədə kiçik, orta və böyük yaş qrup oxucular iştirak edə bilərlər. İlk olaraq müsabiqənin iştirakçıları öz rəsm əsərlərini kitabxanaya təqdim edirlər və müəyyən olunmuş

tarixdə həmin əsərlərə baxış keçirilir. Oxucular arasında açıq və yaxud gizli səsvermə nəticəsində ən yaxşı çəkilmiş rəsmin müəllifləri təyin olunur və mükafatlandırılır. Bundan sonra müsabiqdə iştirak edən həmin rəsmlərdən ibarət sərgi təşkil olunur. Yubileydə həmçinin kiçik yaşlı oxucular üçün yazılmış maraqlı hekayələrin **ucadan oxu**sunu təşkil etmək olar. Uşaqların diqqətini cəlb etmək üçün ifadəli oxunun çox böyük və əhəmiyyətli rolu vardır. Bu tədbir formasının uşaqların psixoloji tərbiyəsinə, həmçinin uşaqlarda böyüklərə hörmət, yaxınlara qayğı, kiçik yaşlarından övladlarımızda vətənə bağlılıq hissinin inkişafına, onların milli ruhda böyüməlırinə böyük müsbət təsiri olur. Bütün bu müsbət halları nəzərə alaraq kiçik yaş qrup oxucular üçün *"Bir dovşan iki tülkünü necə aldatdı?", "Bir parça torpaq", "Kəndli ilə qışın dostluğu", "Sədaqət", "Tülkü tülkünü buyurdu, tülkü də quyruğunu"* hekayələrinin ucadan oxusunu keçirə bilərik. Ucadan oxudan sonra uşaqların bu hekayələrin nə dərəcədə qavramalarını yoxlamaq üçün onlar arasında **sual-cavab** təşkil etmək olar.

Kiçik yaş qrup oxucular üçün həmçinin **səhərcik** də təşkil etmək olar. Səhərciyi *"Bir dovşan iki tülkünü necə aldatdı?"* hekayəsi əsasında təşkil edə bilərik. Aşağıda "Bir dovşan iki tülkünü necə aldatdı?" adlı səhərciyin ssenarisini veririk. *Səhnəni hekayəyə uyğun olaraq dekorasiya ilə bəzəyirik. Səhərcikdə müəllif rolunda aparıcı, dovşan və tülkü rolunu ifa edən kiçik yaşlı oxucular iştirak edirlər.*

**Aparıcı:** Günlərin bir günündə iki tülkü meşədə boş-bikar gəzirdi. Özlərinə peşə tapa bilmirdilər. Gəzib-gəzib dovşanın evinin yanına gəlib çıxdılar.

**I Tülkü:** Bəsdir, avara gəzdik. Gəl dovşanı çağıraq, çölə çıxanda onu aldadıb yeyək. Razısan?

**II Tülkü:** Razıyam.

**I Tülkü:** Dovşan, a dovşan! Bir bayıra çıx, sözümüz var sənə.

**Dovşan:** Nə var, nə olub?

**II Tülkü:** Bilirsən nə var, biz səni yemək istəyirik.

**Dovşan:** Niyə?

**II Tülkü:** Doğrusu ac deyilik. Ancaq bikarlıqdan səni yemək istəyirik.

**I Tülkü:** Bilirsən, bikarlıq çox pis şey imiş. Neçə vaxtdır meşəni veyilveyil gəzirik, özümüzə bir peşə tapa bilmirik.

**Dovşan:** Sizə elə peşə tapım ki, ürəyinizdən olsun.

**Tülkülər:** Tap, tap!

**Dovşan:** Bax, sizin dədə-babanız, babanızın da ulu babası cütçü olub. Siz də gedin cütçülük edin.

**I Tülkü:** Axı bizim toxumumuz yoxdur.

**Dovşan:** Toxum məndə.

**Aparıcı:** Dovşan evinə qaçıb ətəyini duzla doldurub geri qayıtdı.

**Dovşan:** Bax, əvvəl-əvvəl torpağı şumlayın. Sonra bu toxumu səpib üstündən mala çəkin. Üççə gündən sonra görün nə qədər məhsul götürürsünüz!

**Aparıcı:** Tülkülər duzu götürüb sevincək tarlaya qaçdılar. Böyük bir sahəni şumlayıb duzu torpağa səpdilər. Üç gün gözlədilər, beş gün gözlədilər, bir ay gözlədilər, duz göyərmədi. Axırda qəzəblə dovşanın yanına gəldilər.

**Tülkülər:** Dovşan, ay dovşan!

**Dovşan:** Məhsulu topladınız?

**I Tülkü:** Sən verən toxumun biri də bitmədi.

**Dovşan:** Bu ola bilməz. Sizin toxumunuzu kimsə oğurlayıb.

**Aparıcı:** Tülkülər bərk fikrə getdilər. Elə bu vaxt iki milçək uçub tülkülərin alnına qondu.

**Dovşan:** Suss! Sakit olun, toxumunuzu oğurlayanı tapmışam.

**Aparıcı:** Dovşan qaçaraq iki ağac gətirdi. Tülkülərin hərəsinin əlinə bir ağac verib milçəkləri göstərdi.

**Dovşan:** İkiniz də birdən vurun.

**Aparıcı:** Tülkülər var-gücləri ilə bir-birinin başına dəyənəklə vurdular. Milçəklər uçub getdilər, tülkülər isə huşlarını itirib yerə yıxıldılar.

Əli Səmədlinin *"Bir parça torpaq"* hekayəsi üzrə hazırlanmış **səhnəcik** məktəb yaşlı oxucular üçün daha maraqlı olar. Kitabxanaçı əvvəlcə hekayəni oxucuların mütaliəsinə verməli, sonra sinif rəhbərlərinin köməyi ilə tədbiri birgə həyata keçirməlidir. Səhnəcik aşağıdakı kimi hazırlana bilər:

**Kitabxanaçı:** Bir gün düşmən öz pis niyyəti ilə kəsdirdi qapını. Mahalın igidləri silaha sarılıb atıldılar at üstünə. Böyük ata səbr edin görək, igidlərim, dedi. İgidlər dayandı. Düşmən elçiləri gəlib çıxdı.

**Böyük ata:** Xaqanınız nə istəyir?

**Elçi:**Ulu Xaqanımız xərac istəyir.

**Kitabxanaçı:** İgidlər hiddətləndi bu sözlərdən. Böyük ata sakitləşdirdi onları.

**Böyük ata:** Verin, igidlərim, təki dava olmasın.

**Kitabxanaçı:** Elçi yenə gəldi.

**Böyük ata:** İndi tələbiniz nədir?

**Elçi:** Ulu Xaqanımız sizin şəxsi döyüş atınızı istəyir.

**Kitabxanaçı:** İgidlər bu sözləri eşitdikdən sonra "biz dava istəyirik" bağırdılar.

**Böyük ata:** Verin, igidlərim, təki qan-qada olmasın.

**Kitabxanaçı:** Elçi yenə gəldi.

**Böyük ata:** Daha nə istəyirsiniz?

**Elçi:** Ulu Xaqanımız sizin yeganə oğlunuzu özünə nökər etmək istəyir.

**Kitabxanaçı:** İgidlər yenə qışqırdılar. Böyük ata sakitləşdirdi onları.

**Böyük ata:** Verin, bu davada öləcək igidlərimiz mənim bir oğlumdan heç də artıq deyil.

**Kitabxanaçı:** Böyük ata sevindi ki, bununla qan-qada sovuşub getdi, amma belə olmadı. Elçilər yenidən gəldi.

**Böyük ata:** İndi nə istəyirsiniz?

**Elçi:** Ulu Xaqanımız mahalınızdan məskən salmaq üçün bir parça torpaq istəyir.

**Böyük ata:** Ən böyük sərvət bir parça torpaqdır, böyük qeyrətdir bir parça torpaq. Haydı, mənim igidlərim! Düşmən həddini aşdı! Ona aman verməyin! At mənim idi verdim, oğul mənim idi verdim, torpaq isə xalqındır. Onun bir qarışını belə verə bilmərəm!

**Kitabxanaçı:** İgidlər Böyük atanın sözündən sonra atlandılar at belinə. Dava başladı, nə başladı. Qılınclardan şimşək qopdu. Analar, bacılar da kişi paltarı geyib, qılınc götürüb döyüşə yollandılar. Bircə günün içində düşməni məğlub etdilər.

*Səhərciyin sonunda iştirakçılar baş əyərək alqışlanırlar. Alqışların sədası altında səhnəni tərk etdilər.*

Kitabxanaçı səhnəcikdən sonra oxuculara nağılın tərbiyəvi əhəmiyyətindən danışmalıdır. O, oxuculara başa salmalıdır ki, hər bir kəs öz zəhməti hesabına yaşamalıdır. Yalan danışmamalı, ana və atanı, əməyi, vətəni sevməlidir. Oxucular bilməlidirlər ki, hər şeydən pay vermək olar, bircə torpaqdan başqa.

Kitabxanalarda Əli Səmədlinin yubileyi münasibətilə onun gələcəyimiz olan uşaqlar üçün qələmə aldığı bir-birindən dəyərli **kitabların müzakirəsi**ni də keçirmək məqsədəuyğundur. Kitabxanaçı müzakirə zamanı "Aqil babanın nağılları" "Artıq tamah baş yarar", "Hərənin bir

ulduzu", "Kibrit çöplərinin macərası", "Sehrli xalça", "Siçanların toyu" əsərlərini təhlil edib, oxucularla bu müzakirə əsasında sorğu da keçirə bilər. Sizə metodik köməklik məqsədilə Əli Səmədlinin "Sehrli xalça"nın nağılları kitabının müzakirəsinin nümunəsini təqdim edirik.
**Metodist:** Kitabda müəllifin son illərdə yazdığı nağıl-povestləri (Kibrit çöpünün macərası", "Sehrli xalça", "Artıq tamah", "Siçanların toyu" və nağılları "Kiçik bal arısı və xallı kəpənək", "Lovğa yarpaq", "Xınalı kəklik" və s.) toplanmışdır. Yazıçı uşaqları onların maraq dairəsi daxilində səyahətə çıxarır. Onlar səyahətdən yorulmaq bilmir və nağıl dünyasının romantikasına dalırlar. El ədəbiyyatının ən qədim növü olan nağıllar yazılı ədəbiyyatın, o cümlədən uşaq ədəbiyyatının inkişafı üçün həmişə tükənməz mənbə olmuşdur. Bu mənbədən bəhrələnən Əli Səmədov uşaqlara çox oynaq və axıcı bir dildə nağıl danışır. Maraqlıdır ki, yazıçı öz nağıllarının əksəriyyətini "Biri vardı, biri yoxdu…" ilə başlayır. *"Kibrit çöplərinin macərası"* adlı ilk nağıl-povestdə müəllif adi kibrit çöpünün istehsal olunması üçün çəkilən zəhməti balaca oxucuların gözü qarşısında canlandırır. Belə ki, əsər oxucuda kibrit çöpünün necə meydana gəlməsi haqqında tam və aydın təsəvvür yaradır. Yazıçı təkcə kibrit çöpünün necə istehsal olunduğunu göstərməklə kifayətlənmir. Hopbalanı cənuba-kükürd mədənlərinə, Topbalanı isə şimala Sibir meşələrinə səfərə göndərir. Onlar – Hopbala və Topbala (kibrit çöpləri) gördükləri yerlər haqqında çox maraqlı məlumat verirlər. Povestdə heç bir dil dolaşıqlığına, qəliz ifadəyə, anlaşılmaz sözə rast gəlmirik. Öz əcdadını ulu babasını axtaran Hopbala ilə Topbalanın başına gələn macəranı dinləyirik. Dostluq, xeyirxahlıq, yoldaşlıq duyğusunun yenilməzliyini alqışlayırıq. Bu əsərdə ana – övlad münasibəti də çox güclüdür. Övladlarından ayrılmaq Anaya çox çətindir.

Amma bununla belə o, istəyir ki, balaları öz ulu babalarını tapsınlar, köklərindən xəbərləri olsun. Odur ki, onların əcdadlarını axtarmasına mane olmur. Bu detalların özü belə oxucuya estetik zövq verir. İstər-istəməz onu öz kökü haqqında düşünməyə vadar edir.

Yazıçının yaradıcılığında **nağıl janrı** xüsusi yer tutur. *"Artıq tamah"* povest-nağılında isə Səməndər və İsgəndər adlı iki yoldaşla tanış oluruq. Dəyirmanda üç gün qalmağa məcbur olan bu iki yoldaşın, nəhayət, çörəyi tükənir. Dəyirmanın suyu donduğundan öz dənlərini üyüdə bilmirlər. Öz aralarında məsləhətləşirlər. İsgəndər un dalınca dəyirmançının evinə gedir. Həmin unla bir kömbə bişirirlər. Elə əsas mübahisə də kökəni bölmək üstündə olur. Nə dəyirmançı, nə də qazı onlara kömbəni bölməkdə kömək edə bilmir. Nəhayət, dəyirmançı yükü öz üzərinə götürür. Onları meşəyə gətirir. Uşaqlar ağacın dalında gizlənib yırtıcı heyvanların öz ovlarını necə böldüklərinə tamaşa edir. Yazıçı belə bir əhvalatı əsərə daxil etməklə məhz öz nəsihətamiz fikrini uşaqlara çatdıra bilir. Yazıçı sanki "Dost dosta tən gərək, tən olmasa gen gərək" fikrini öz oxucularına çatdırmaq istəyir. Nağıldakı şeirlər də ona bir şirinlik qatır, oxunaqlı edir. Tülkünün oxuduğu mahnının sözlərində onun öz siması əks olunur, hiyləgərliyi, ikiüzlülüyü, yalançılığı tənqid olunur. Beləliklə də, insana yaraşmayan bu cəhətlər ən naqis duyğu kimi pislənir.

Əli Səmədov bir uşaq yazıçısı kimi həmişə oxucusunun maraq və görüş dairəsinin genişlənməsinə xüsusi fikir verir. Bu onun bütün əsərləri üçün səciyyəvidir. *"Sehrli xalça"* da, *"Siçanların toyu"*nda və digər əsərlərində də yazıçı nağıl dilində uşaqların başa düşəcəyi bir dildə onlarla söhbət edir. *"Lovğa yarpaq"* nağılında adından göründüyü kimi, lovğalıq tənqid olunur. Göstərilir ki, ağacın budağındakı yarpaqlardan biri həmişə özünü öyürdü. Öz gözəlliyinə,

möhkəmliyinə, iriliyinə görə sevinirdi. Ətrafında olan başqa yarpaqları da bəyənmirdi. Nəhayət, payız gəlir, budaqlardakı yarpaqlar yavaş-yavaş saralıb yerə düşür. Bir gün də növbə lovğa yarpağa çatır. Haray həşir salsa da, ağacın dibinə düşür. Qış ötür. Yaz gəlir. Ağaclar yenidən yaşıllığa bürünür. Bu nağılda söhbət yaşıl yarpaqdan getsə də, yazıçı onu mənalandırır. Öz oxucusuna çatdırmaq istəyir ki, lovğalıq insana yaraşmayan cəhətdir. Əli Səmədli qələmə aldığı bu nağıl povestlərdə oxucusunu düşünüb çıxış yolu tapmaq yollarını öyrədir. Bu da təbiidir ki, uşaqların dünyagörüşünün inkişafına, zehinlərinin itiləşməsinə müsbət təsir göstərir. Onlar istər-istəməz fikirləşir, axtarmaq, tapmaq haqqında düşünürlər. Bu mənada yazıçının **nağıl – tapmacaları** xüsusi əhəmiyyət kəsb edir. *"Meşənin ən dinc heyvanı"* nağıl tapmacasında yazıçı uşaqlara sadə bir dillə maraqlı bir nağıl danışır. Onlarda xainliyə yırtıcılığa, ziyankarlığa, oğurluğa nifrət hissi oyadır. Eyni zamanda öz balaca oxucularını bir qədər də düşünməyə vadar edir. Kitabdakı digər nağılları da oxuya-oxuya bu qənaətə gəldik ki, Əli Səmədli uşaq ədəbiyyatımızın incəliklərinə bələd olan yazıçıdır. O, istər kiçik həcmli nağıllarında, istərsə də iri povestlərində özünü uşaq dünyasına, uşaq psixologiyasına bələd bir sənətkar kimi göstərir. Çalışır ki, ifadə etmək istədiyi fikri öz balaca oxucularına çatdıra bilsin və onlar yetkin, zəngin dünyagörüşlü insan kimi formalaşsınlar.

Nağıllar və yazıçı haqqında oxucuların fikir və biliklərini yoxlamaq məqsədilə onlar arasında **test sorğuları** təşkil etmək olar. Belə test nümunələrindən birini sizə təqdim edirik.

**Test**

1. **Əli Səmədli neçənci ildə anadan olub?**
   A . 1928
   B. 1930*
   C. 1931
   D. 1925

2. **Əli Səmədli hansı rayonda anadan olmuşdur?**
   A . Göyçay*
   B. Quba
   C. Lənkəran
   D. Oğuz

3. **İlk nağılının adı necədir?**
   A . Sehirli xalça
   B. Şirin yuxu
   C. Ən böyük yalançı*
   D. Xəsis kişi

4. **Aşağıdakı nağıllardan hansının müəllifi Əli Səmədlidir?**
   A. Bulud
   B. Qarı və buzov
   C. Qızıl şamdan
   D. Bülbül və qarğa*

5. **Hansı cizgi filmin ssenari müəllifi Əli Səmədlidir?**
   A. Lovğa fil balası*
   B. Toplan və kölgəsi
   C.Meşəyə insan gəlir
   D.Cırtdanın yeni sərgüzəşti

**6. Şairin ilk kitabı hansıdır?**

A . Generalın uşaqlığı
B. Ömür karvanı
C. Aqil babanın nağılları*
D. Nağıllar, əfsanələr

**7. Aşağıdakı kitablardan hansının müəllifi Əli Səmədlidir?**

A. Ürəyindən keçəydim
B. Milçək ürəyi
C. Ətirli düymələr
D. Çinarlı şəhərim mənim*

**8. "Qoy göyərsin Vətən adlı torpağının hər qarışında, hər daşında Azadlıq!" misrasının müəllifi kimdir?**

A. Məmməd Araz
B. Hüseyn Arif
C. Əli Səmədli*
D. Əli Tudə

**9. "Generalın uşaqlığı" povesti hansı qəhrəmana həsr olunub?**

A. Mehdi Hüseynzadə
B. Həzi Aslanov*
C. Çingiz Mustafayev
D. Salatın Əsgərova

**10. "Azadlıq deyib car çəkirsən yetmiş il**
**Azadlığa az qurban verməmisən onu bil." misraları hansı şeirdəndir?**

A. Qarabağ
B.Ağlama anam, ağlama*
C. Ağlama,Şuşam
D. Çeçen olmaq istəyirəm

**11. Aşağıda adı göstərilən hansı nağıl-pyesin adı düzgün verilmişdir?**

A. Həsənin vəfalı xoruz
B. Əlinin vəfalı xoruzu
C. Əhmədin vəfalı xoruzu*
D. İbrahimin vəfalı xoruzu

Həmçinin yazıçının yaradıcılığının təbliğində kitabxanalarda **ədəbi-bədii gecələr**in keçirilməsi də məqsədə uyğundur. Bədii gecənin keçirilməsi üçün 1-2 ay əvvəl mövzu seçilməli və hazırlanmalıdır. Gecəni *"Əli Səmədli və uşaq dünyası", "Uşaqlara həsr olunmuş ömür"* və s. adlarla adlandırmaq olar. Tədbir 2 hissədən ibarət olur. I hissədə oxuculara Əli Səmədlinin həyat və yaradıcılığı, hekayə, şeir və nağılları barədə ətraflı məlumat vermək lazımdır. Tədbirin II hissəsində onun əsərlərindən səhnələşdirilmiş parçalar göstərilə bilər. *"Nağıl dünyasının yolçusu Əli Səmədli"*adlı ədəbi-bədii gecənin ssenarisini təqdim edirik:

**I Aparıcı:** Hörmətli qonaqlarımız! Əziz uşaqlar, yazıçı Əli Səmədlinin adı sizin hamınıza yaxşı tanışdır. Bu il sevimli yazıçımızın 90 illik yubileyidir. Bu münasibətlə sizin üçün hazırladığımız ədəbi-bədii gecədə xoş gördük sizləri. Ədəbi-bədii gecəni açıq elan edirik.

**II Aparıcı:** İlk əvvəl istərdim ki, nağılçı babamızın həyatı haqqında qısa bir məlumat verək. Əli Səmədli 1930-cu ildə Göyçay rayonunun Mallı-Şıxlı kəndində, müəllim ailəsində anadan olub. Onun uşaqlıq illəri müharibə illərinə düşüb. Atası və əmilərinin əsgər getdiyindən ailənin ağırlığı balaca Səmədin çiynində olub. Yazıçının özünün dediyi kimi: "Uşaqlığım, gəncliyim, heç olmayıb dincliyim". Hörmətli oxucular, yazıçıının uşaqlıq illəri onun *"Generalın uşaqlığı"* və *"Ömür karvanı"* kitabında geniş əks olunub. Əgər Əli Səmədlinin həyatı sizin üçün maraqlıdırsa bu kitabları oxuyun.

**I Aparıcı:** Uşaq yazıçısı Əli Səmədli "Zərgül və Tərgül" "Qarlı gündə", "Məktəb səhnəsi", "Çinar ömrü uzun olur", "Tapmacalar", "Hər kəsin öz nəğməsi", "Sehrli xalça" və başqa kitabları ilə yanaşı, teatr səhnələrində tamaşaya qoyulmuş "Artıq tamah baş yarar", "Kibrit çöplərinin macərası", "Sarı bülbül", "Sehrlər aləmində" və s. pyesləri ilə oxucu və tamaşaçılara yaxşı tanışdır. Onun əsərlərinin əksəriyyəti folklor motivləri əsasında qələmə alınmış, xalq nağıllarından və rəvayətlərdən qidalanmışdır. Göründüyü kimi yaradıcılığa şeirlə başlasa da, qələmini ədəbiyyatın bütün janrlarında sınamışdır. O, əsərləri ilə insanların qəlbinə sirayət etmiş, onların tərbiyəsində müəyyən rol oynamış, mənəviyyatlarının formalaşmasına təsir göstərmişdir.

**II Aparıcı:** Əli Səmədlinin uşaqlar üçün yazdığı pyeslərin bir çoxu teatrlarda səhnəyə qoyulub. *"Artıq tamah baş yarar"* nağıl-pyesi dəfələrlə A.Şaiq adına Dövlət Kukla teatrında tamaşaya qoyulub, böyük müvəffəqiyyət qazanıb. Bu pyes uşaqların xoşuna gəldiyi üçün səhnədən düşməyib, indi də teatrın ən yaxşı əsərləri cərgəsindədir.

**II Aparıcı:** Hələ Nizami motivləri əsasında yazdığı *"Hərənin bir ulduzu"* nağıl-pyesi! C.Rəhman adına Şəki Dövlət

teatrının ifasında dəfələrlə televiziya ilə göstərilib. *“Əhmədin vəfalı xoruzu”* nağıl-pyesinin taleyi daha uğurlu olub. Həmin əsər Gəncə şəhərindəki “Gənclik” kukla teatrında, Özbəkistan və Belarusiyanın uşaq teatrlarında müvəffəqiyyətlə göstərilib. Uşaq vaxtı eşitdiyiniz nağıllar sizin həyatınızda böyük rol oynayır. Əli Səmədlinin nağıllarını oxusanız bu nağıllar qəlbinizdə yeni nağıl dünyası yaradacaq və siz sanki bu nağıllı dünyanın sakinləri olacaqsınız. İndi isə balaca dostlarımızın ifasında kiçik bir səhnəciyə tamaşa edək.

(Yazıçının *“Çayın gileyi”* hekayəsindən **səhnəcik** göstərilir. Çayın və Gölün sözlərini iki kiçikyaşlı oxucu səsləndirir.)

**Aparıcı:** Bir kiçik çay neçə illər idi ki, bir gölə axırdı. Bu göl çayın sularını acgözlüklə udurdu. Çay isə uzaqlara axıb getmək istəyirdi. Ancaq arzusu illərlə ürəyində qalırdı. Bir gün o dedi:

**Çay:** Sən bütün göllərin ən acgözüsən. Mən yay-qış, gecə-gündüz sənin qoynuna axıram, sən isə doymaq bilmirsən ki, bilmirsən.

**Göl:** Sən mənim doymağımı neynirsən?

**Çay:** Axı, mən uzaqlara, lap uzaqlara axıb getmək istəyirəm.

**Göl:** Sən məni o qədər də acgöz bilmə. Mən öz sularımdan günəşə pay verirəm.

**Çay:** Kimə pay verirsən?

**Göl:** Günəşə.

**Çay:** Axı, sənin suyun, günəşin nəyinə lazımdır?

**Göl:** Yağış yağdırmaq üçün.

**Çay:** Bəyəm, yağışı günəşdir yağdıran?

**Göl:** Əlbəttə, günəşdir.

**Çay:** O yağışı necə yağdırır ki?

**Göl:** Günəş mənim sularımı buxarlandırıb havaya qaldırır. Buxar isə göylərdə soyuyub, yağışa çevrilir, yerə tökülür.
**Çay:** Vermə mənim sularımı günəşə!
**Göl:** Axı, onda yağış yağmaz.
**Çay:** Qoy yağış yağmasın!
**Göl:** (Gülür) Axı, onda çaylar quruyar.
**Çay:** Hə, doğrudan da biz çaylar, yağış sularından yaranırıq.
**Aparıcı:** Çay həmin gündən sakit-sakit axmağa başladı. *(Alqışlar səslənir. Bir kiçikyaşlı oxucu yazıçının "Günəbaxan" şeirini söyləyir).*
**Oxucu:** Mən, günəşlə bacıyam,
Onun şahlıq tacıyam.
Ləçəklərim sarıdı,
Üzüm ona sarıdı.
Çox sevirəm, mən onu,
O da çox sevir məni.
Gizlənpaç oynayırıq,
Bütün günü səhərdən,
Axşam elə gizlənir.
Tapa bilmirəm onu,
Üfüqdə qalır izi,
Amma görünmür özü
Dönüb küsürəm düzü.
Səhər gəlir barışaq
Küsülü qala bilmirəm,
Barışıram onunla.
Başlayırıq yenidən
Gizlənpaç oynamağa.
Axşam yenə gizlənir
Tapa bilmirəm onu,
Yenə küsürəm ondan.
Səhər gəlir barışaq,

Küsülü qala bilmərəm
Barışıram onunla,
Axı ona bacıyam,
Onun şahlıq tacıyam.

Tədbirdə uşaqlar Əli Səmədlinin *“Sehirli ağac”, “Dostluğun gücü”* adlı iki pərdəli nağıl pyeslərini də səhnələşdirə bilərlər.

**I Aparıcı:** Uşaqlar aləminə yaxşı bələd olan şairin nağıllarını, əfsanələrini uşaqlar həvəslə oxuyurlar. **Tapmacaları** uşaqlar daha çox sevirlər. Odur ki, indi biz sizə tapmacalardan deyəcəyik. Cavabı düzgün tapan gözəl hədiyyələr qazanacaqdır. Razısınızmı uşaqlar? (uşaqlara üzünü tutur). Onda başlayaq.

II Aparıcı: Dünya tanıyır məni,
Azad ellər məskənim.
Köynəyi ağ geyirəm,
Dünyaya “sülh” deyirəm. (Göyərçin)

I Aparıcı: Göylər geyinər qara,
Buludu yara-yara,
Nur saçar birdən-birə,
İşıqlanar dağ-dərə. (İldırım)

II Aparıcı: Gecə-gündüz çıq-çıq edər,
Nə yorular, nə dincələr,
O, olmasa yatıb-qalar
Dərsə gedən uşaqlar. (Saat)

I Aparıcı: Tikandan paltarım var,
Hər kim toxunsa batar,
İlan da dəyməz mənə,
Deyin görüm nəyəm, nə? (Kirpi)
Meşələrdə gəzərəm,
Tarlaları bəzərəm.
Başımda bitib budaq,
Yarpağı olmur ancaq. (Maral)

Dincəlməklə mən varam,
Mışıl-mışıl yataram.
Hirslənsəm siçanları,
Bir-birinə qataram. (Pişik)

*Sonda tapmacalara cavab tapan uşaqlar mükafatlandırılır.*

**I Aparıcı:** Əziz, dostlar ümüd edirik bugünkü tədbirimiz ürəyinizcə oldu.

II **Aparıcı:** Bu günlük bu qədər. Yeni tədbirlərdə görüşənədək.

Əli Səmədlinin 90 illik yubileyi ilə əlaqədar kitabxanalarda yazıçının yaradıcılığını oxuculara təbliğ edən **yubiley həftəsi** də təşkil etmək olar. Yubiley həftəsinin I günü şeir müsabiqəsi, II gün rəsm müsabiqəsi, III gün kitab sərgilərinin təşkili, IV gün yazıçının nağıl povestlərindən bəhs edən səhnəciklərin təşkili, V gün yazıçının nağılları əsasında çəkilmiş cizgi filmlərinin nümayişi, VI gün Kukla teatrının ifasında yazıçının "Artıq tamah baş yarar", "Hərənin bir ulduzu", "Kibrit çöplərinin macərası", "Sehrli xalça", "Siçanların toyu" və s. əsərlərinin nümayişinin təşkili məqsədəuyğundur.

**Ədəbiyyat siyahısı**

**Əsərləri**

Çinarlı şəhərim mənim. - Bakı : Turan Nəşrlər Evi, 2003. - 341 s.

Qanlı bənövşə : Nağıl və hekayələr+. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1996. - 48 s. Ömür karvanı : Hekayə, şeir, əfsanə. - Bakı : Ulu, 2005. - 204 s.

**Kiril qrafikası ilə**

Generalın uşaqlığı : povestlər. - Bakı : Gənclik, 1991. - 352, [3] s.

İki ömür yaşayan adam : sənədli povest. - Bakı : Hərbi nəşriyyat, 1990. - 108 s.

Kefindən ölən adam. - Bakı : Azərnəşr, 1991. - 221 s.

Nağıllar, əfsanələr, tapmacalar. - Bakı : İşıq, 1993. - 448 s.

Ömrümə düşən işıq. - Bakı : Günəş, 1999. - 319 s.

70 ilin sevinci. - Bakı : Günəş, 2000. - 520 s. -

**Kitablarda**

Durna qatarından düşən lələk : hekayə // Talvar. - B. : Təhsil, 2009. - S. 101-105. - (Məktəb Kitabxanası).

Qarağacın kölgəsi ; Nimçədə çimən sərçələr : kiçik hekayələr // Yusifoğlu R. Uşaq ədəbiyyatı. – Bakı : Təhsil, 2002. – S. 153.

***Dövri mətbuatda***

Dünyanın qəm yükü : Əli Səmədlinin son yazısı : Hüseyn Cavidin ədəbi irsi // Ədəbiyyat qəzeti. - 2016. - 27 fevral. - **№ 8**. - S. 7.

Sənət və zəhmət : nağıl // Savalan. - 2019. - 17-23 sentyabr. - № 35. - S. 8.

Top : hekayə // Göyərçin. - 2019. - № 9. - S. 13.

**Haqqında**

**Yusifoğlu R.** Əli Səmədli // Uşaq ədəbiyyatı. – Bakı : Təhsil, 2002. – S.151-153.

**Nağıl dünyasının yolçusu Əli Səmədli**

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır: 29.05.2020
Tirajı:100
Pulsuz